**Polşanın bəzi ərazilərində qeydə alınmış quş qripi xəstəliyi ilə bağlı tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılmasına dair məlumat**

**(24 fevral 2023)**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (WOAH) rəsmi məlumatlarına əsasən, Polşa Respublikasının Lodz, Opolsk, Kuyavsk-Pomorsk, Varminsk-Mazursk, Mazoviesk, Lyubelinsk, Pomorsk, Slask, Velikopolsk və Malopolsk inzibati ərazilərində qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb. Belə ki, qeyd olunan ərazilərdə WOAH-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, bu xəstəliyin ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunması məqsədilə adları çəkilən ərazilərə tətbiq edilmiş məhdudiyyətlər aradan qaldırılıb. Eyni zamanda müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.